### 5. Əsirliyə qarşı dözümün gücü

Birinci Qarabağ müharibəsində azərbaycanlılar üçün, yəni köklü qarabağlılar üçün döyüş demək olar ki, gözlənilməz motivlərlə başlamışdı. Hətta döyüşün xarakteri də, təbiəti də, hansı əraziləri əhatə edəcəyi də düşüncələrdə mübahisəli idi. Adamların bir çoxu (hətta dövlət adamlarının bir çoxu) belə düşünürdü ki, Qarabağ müharibəsi yalnız Dağlıq Qarabağ Muxtar Vilayətinin əraziləri ilə məhdudlaşacaq. Ancaq belə olmadı. Erməni vandalları dağıdıcılıq gücü ilə qeyri-əraziləri də ələ keçirmək yolu tutdular. Bununla da Qarabağın əhatəsində olan ərazilər işğala məruz qaldıqca insanlar çaşqınlıq içində, yəni hazırlıqsız bir vəziyyətdə öz yerlərini, yurdlarını tərk etməyə başladılar.

İndi kifayət qədər vaxt keçib. Soyuq başla düşünməyin vaxtıdır. Necə ola bildi ki, qocalar, əlsiz-ayaqsızlar, uşaqlar girov düşdülər. Demək, yerli əhali qətiyyən müharibə sindromunu hələ düşüncəsinə qəbul edə bilməzdi.

Qarabağ müharibəsinin ən dəhşətli səhifələrini erməni işğalı zamanı əsir düşənlərin (yumşaq halda girov götürülənlərin) həyatının görə biləcəyimiz dərəcədəki görüntüləri təşkil edir.

Əsirlik həyatı, xüsusilə vandal düşüncəli etnik qəddarlıq hissiyyatı ilə yaşayan düşmənin əsirliyinin nə demək olduğunu dünya ədəbiyyatında da əks etdirən yazılar var. Və biz də bir zaman biz bu məqamı çox reallıqla qələmə gətirir: *"Şərti də olsa, azadlığa çıxan yeniyetmələr gecə aşağılara doğru ehtiyatı əldən verməyərək yol getdi. Qızın bu kəndlərdən olması işə yarıyırdı. Gizlənə-gizlənə irəliləyirdilər deyə hələ düşündükləri yerə çata bilməmişdilər. Yolu azacaqlarından da qorxurdular. Oraya bir xeyli məsafə qalırdı, qaranlıq idi. Oğlan dayanmağı məsləhət gördü. Hərəkət etdikləri ərazilər dərətəpəlik olduğuna görə nəfəsləri kəsilirdi. Eyni zamanda onların lazımi vaxtlarda gizlənmələrinə imkan yaradırdı. Qorxu hissi bir an belə gəncləri tərk etmirdi. Sərkizin, Qarikin ölümündən qəzəblənən ermənilər yəqin ki, hər deşiyi axtaracaqdılar.*

*Kollu dərənin dibində oturdular. Nərgiz Hayquş verən bükülünü açdı, bütöv bir çörək idi.*

*-Bir az yemək gərəkdi, yoxsa yeriməyə taqətimiz tükənər.*

*- Elədir. Bir az yeyək, qalan qalsın. Allah bilir hələ nə qədər yol gedəcəyik.*

*Qız Əhmədin cavabında bir ümidsizlik duydu, qorxu keçirdi:*

*-Yoxsa gedib çıxmayacağıq?*

*Əhməd təskinlik verdi:*

*-Nə danışırsan? Allah yol açar bu əclafların əlinə düşmərik. Yetişərik özümüzünkülərə, əsas odur ki, ehtiyatlı tərpənək, ehtiyatlı...*

*Hava soyuq idi, üşüyürdülər. Yuxusuzluq, payız havasının sazağı öz işini gördü. Ancaq başqa yol yoxdu.*

Bu sözləri (sic) — 

biz yazımızı tamam başqa cür qurmalı idik. Çünki hər bir yazının özü də canlı orqanizmdir. Ancaq indiki quruluşda yazı bizdən tələb edir ki, bədii obrazların təlqin etdiyi yol ilə gedək və bu zaman biz özümüzdən asılı olmayaraq Nərgizin düşüncələrini, Əhmədin mənəvi mühitində baş verən çarpışmaları, Məhərrəm kişinin məcburiyyət qarşısında yaşadığı həyatın zillətlərini olduğu kimi göstərək. Heç olmasa, iki düşməni (komandır Sərkizi və gözətçi Qariki) necə qəhrəmanlıqla, igidliklə öldürməsini yaddaşa gətirək və biz artıq bu barədə oxucuya məlumat verməşik.

Gənclərin düşmən önündəki mərdliyi əslində can davası deyil. Ləyaqət davasıdır. Əgər həmin gənclər can davası eləsəydilər, alçalardılar. Nəyin xatirinə olsa belə, canlarını qorumağa razılaşardılar. Amma bu gənclər ölümlə üz-üzə dayananda canlarını yox, ləyaqətlərini qorumağı üstün tuturlar. Hər halda ləyaqətlərini qorumaqla üzüzə savaşdan qalib çıxan gənclər həyat uğrunda mübarizəni davam etdirirlər. Və bu zaman Əhmədin anası ilə bağlı monoloqu çox dəyərlidir: *"Yazıq dəli olub indi. Gecəsi-gündüzü yoxdur. Bəlkə də Arazda boğulduğumu zənn edirlər. Anama yetişə bilsəydim, kəndi çətin görərəm. Alçaqlar tutub oraları. Anam... Anam... Başıma gələnləri sənə danışsaydım yüngülləşərdim. Elə düşünmə ki, o itləri görən kimi əllərimi qaldırıb təslim oldum. O əclaflarla necə əlbəyaxa olduğumu anladacam sənə*

məkdən ötrü bundan o yana təsirli təsvir tapmaq mümkün deyildi.

Əsirlikdən qaçan gənclərin cəsarəti də, onların qırılmayan inamları da bu gün başlarına təbii görünə bilər. Və bəlkə də bir qədər asan görünə bilər.

Həyat həqiqəti isə başqa cürdür. 17 yaşlı gəncin kifayət qədər döyüş təcrübəsi olan komandir Sərkisi öldürməsi asan məsələ deyil. Bunun üçün hansı psixoloji məqam lazımdır? - bu məqamı yazıçı kifayət qədər göstərə bilir. Elə bu gün də kimsə soruşa bilər ki, 17 yaşlı Əhməd Sərkisə necə qalib gəldi? Sərkislə Əhmədin qarşılaşma məqamı əsərdə kifayət qədər dolğunluğu ilə təqdim olunur. Amma onu da deyək ki, gözəgörünməz bir güc də var. Bu güc Sərkisin özgə, Əhmədin isə öz torpağında olmasıdır. Məhz bunun üçün Əhməd qüdrətlidir və güclüdür.

Zənnimcə, psixoloji müharibədə (fiziki müharibədən fərqli olaraq) qələbəni Əhməd və Nərgiz tərəfində şərtləndirən güc mənbəyini aydın görə bilirik. Yol boyu hadisələrin gərginliklə təsviri, vaxtı ilə əsirlik həyatının əvvəlində Əhmədə, Nərgizə mənəvi dayaq olan, yol göstərən Məhərrəm kişinin özünün də əsirlik həyatından qurtulmasının və bu zaman onun oğlu Bəxtiyarın da hətta həyatının son anlarında belə ölümdən xilas olmasının mənbəyi Əhməd olaraq əsər boyu görünür.

# V. "SOLMAYAN NƏRGİZ"İN CAZİBƏSİNDƏ

*"Kredo"* qəzetində bir vaxt yazıçı-publisist Elçin Kamalın bir *"Bir əsirin xatirələri"* povesti çap olunmuşdu. Həmin povestin prototipi öz adı ilə göstərilən Şakir Əlif oğlu Albalıyev idi. Az müddətə ermənilərin əsiri olan Şakir onların qeyri-insani hərəkətlərini, insanlığa yaraşmayan münasibətlərini xatirələrində ağrı ilə dilə gətirir və yazıçı-publisist Elçin Kamal da bu xatirələr əsasında həmin povesti qələmə alır.

Zənnimcə, bu tipli əsərlərin hər biri gələcək nəsillər üçün təkcə bədii zövq mənbəyi olmayacaq, həm də bizim yaxın keçmişimizdə baş verən hadisələrin real mənzərəsini təsəvvür etmək üçün istinad mənbəyi olacaq. Bu mənada hər bir əsirin düşüncəsi, xatirəsi, yaddaş məhsulu tariximiz üçün dəyərli, nə qədər acı olsa da, çox qiymətli fakt mənbəyidir.

Ulduz Qasımın *"Solmayan Nərgiz"* romanının çox real səhifələri var ki, bu səhifələri oxuduqca gözlərimin qarşısında Şakirin keçdiyi əsirlik zamanının *"xəritəsi"* canlanır. Əlbəttə, bizim həmkarımız Şakirdən fərqli olaraq Əhmədin, Nərgizin, Məhərrəm kişinin, Bəxtiyarın əsirlik həyatı sözün həqiqi mənasında daha məşəqqətlidir, daha ağrılıdır.

Belə düşünürəm ki, yazı boyu nə qədər ədəbi-publisistik düşüncə ilə erməni vandallarının mühitindən can qurtarıb çıxmaq gücündə olan gənclərin taleyini yazıya gətirmək nə qədər çətindirsə, bir o qədər də onların həyat uğrunda, yaşam uğrunda mübarizələrini təsəvvür etmək və yazıya gətirmək bir o qədər çətindir.

Burada söhbət yazıçı Ulduz Qasımın öz qəhrəmanlarının həyat uğrunda mübarizələrini qələmə gətirir. Yəni erməni əsirliyindən çıxmaq hələ azadlığa qovuşmaq deyil. Gərək nə qədər həyat yolu qət edəsən, aclığa, susuzluğa, nə qədər təhlükələrə sinə gərə biləsən ki, tam azadlığa qovuşasan. Yazıçı

*görürdü. Ancaq başqa yol yoxdu. Yeməyi bitirdilər. Əhməd ayağa qalxıb ətrafı gözdən keçirdi.*

*-Sakitlikdir, heç kim yoxdu ətrafda. İndi bir az gözümüzün acısını alaq. Sən yat, mən gözlərəm.*

*O, qarşılarındakı qayanı göstərdi.*

*-Bunun arxasında yatmalıyıq, görən olmaz.*

*- Elədir.*

*Nərgiz kürəyini qayaya söykəyib gözünü yumdu. Əhməd də qayaya sığındı, amma neçə günün əzablarından qızarıb qan çəkmiş gözlərini qaranlığa zilləyib durdu. Başlarına gələn müsibəti düşündü. Hər şey gözünün önündə yenidən canlandı. Olanlar ona qorxulu bir yuxu kimi gəlirdi. Hələ də qəddarların əlindən çıxa bildiklərinə inanmırdı. Doğmaları, kənd yadına düşdü. Anasının nələr keçirdiyini təxmin edirdi".* Bu mətni yazıçının diktəsində olduğu kimi verməyimizin səbəbi məlumdur. Biz istədik ki, oxucu, hətta erməni əsirliyindən qurtarmış olan gənclərin həmin dövrdə, həmin məqamda həyat uğrunda necə mübarizə apardıqlarını da oxucu qədərincə təsəvvür eləsin.

Ulduz Qasım müəyyən məqamlarda elə dəqiq təfərrüatlara varır ki, sanki onun özünün erməni əsirliyindən keçən həyatının mənzərəsini görürük.

Əsil yazıçı təxəyyülü həyat həqiqətinə yanaşmasına qədər özünü göstərə bilir. Elə bu səbəbdən də biz erməni əsirliyindən qurtulmuş gənclərin yaşantılarını Ulduz Qasımın təsvirində, hətta tanıdığımız obrazların erməni əsirliyindən qurtarmaları zamanı yaşadıqları prosesi, psixoloji düşüncələri uyğunlaşdıra bilirik və bununla da Ulduz Qasımın həyat həqiqətinə nə qədər yaxınlaşdığını təsəvvür edə bilərik. Yazıçının *"Solmayan Nərgiz"* romanını ədəbi-elmi düşüncənin motivi üzrə tədqiq etməli olsaydıq, onda *inşallah, qoy çatım yanına. Bilirsən necə darıxmışam? İsti əllərinin saçlarıma çəkdiyi sığalı, "anan qurban olsun deməyini" unutmamışam. Elə məni danlamağını da, evə gec gələndə hirslənməyini də. Kaş ki, yanında olaydım, axşam-səhər deyinərdin tutduğum işlərə görə, gözəl anam. Daha böyümüşəm mən, danışacağam sənə hamısını. Hamının qorxudan qabağında əsdikləri kartofburun Sərkisi, onun tulası Qariki o dünyaya vasil elədim. Sənə, el-obamıza verilən əzabların qisasını almaq üçün oldu bunlar. Bu torpağın igidləri var, mərdləri var. Bu el-oba üçün uf demədən canlarından keçən övladları var. Qoy bilsinlər ki, bu torpaqları kafirlərə verməyəcəyik, qaytaracağıq yurdumuza. Yenə əkib-biçəcəyik, qurub-yaradacağıq, havasıyla nəfəs alacağıq, suyunu içəcəyik, üz sürtəcəyik torpağına, daşına. Heç kim cənnət Qarabağa sahiblənə bilməz! Heç fatehlər də buraları tuta bilmədi. Kimlər gəlib-getmədi ki, Qarabağa. Quduz ermənilər də bilməlidilər ki, bu torpaqlar sahibinə aiddir, neyləsələr də, nə desələr də, biz Qarabağdan vaz keçməyəcəyik. Sırğa eləməlidilər bunu o kar qulaqlarına. Bilirsən necə qorxaqdılar, ana? Heç dərd etmə ki, bunların əlindəyəm. And olsun əziz canına, əyilmədim onlara bir an belə. Qorxmadım o cabavarların hədə-qorxularından. Bir canım var, fəda olsun vətənimə dedim. Orada silahım olsaydı, qarşıma keçən quduzları uf demədən öldürərdim. Silahsız gəbərtdim ikisini. Görürsən də, ana, necə övlad böyütmüsən? Həmişə deyirdin, oğul gərək mərd ola, qoçaq ola, qeyrətli ola. Hələ həngamə bundan sonradır, ana, görəcəksən hamısını...".* Düşünürəm ki, yazıçı üçün həm istinad elədiyi obrazın, həm də mühitin vəziyyətini, hətta ən qorxunc və insan həyatı üçün dözülməz həddin mahiyyətini göstər-

Bu zaman biz Əhmədin güc mənbəyini azərbaycanlıların təfəkkür, düşüncə sistemindən gələn motivlə bağlamaq imkanı qazanırıq. Əhməd önündə parlaq bir obraz görür - namuslu qız obrazı. O, Nərgizi gözünün qabağında tutduğu üçün, daha doğrusu, gözünün önündən kənarda qoymadığı üçün güclənir, özünə mənəvi istinad kimi görür onu. Bir sözlə, Nərgiz Əhmədin gücünün tükənməməsində əsaslı ilham mənbəyi olur.

Biz əsirlikdən qurtulanların doğmaları tərəfindən qarşılanmalarını, yəni insanın öz doğmasına qovuşmasının ecazkar mənzərəsini də Əhməd və anasının timsalında daha yaxından görürük.

Əhmədin anası Nigar özünü oğlunun üstünə atır... Düşünürəm ki, yazıçı üçün bəlkə də təsvirlərin ən çətin məqamı olduğuna görə bu yerdə təfərrüata varmır.

Əhməd anası ilə Arazın qırağında görüşür. Özü də cənubi Azərbaycan tərəfdə. Əhməd anasından bircə söz soruşur: *"Bəs sən niyə getmədin adamlarla? Niyə tənha qaldın bu sahildə?"* İndi ananın cavabını biz hansı sözlərlə verə bilərik və burada yazıçının təsvirinə ehtiyac varmı?

Ulduz Qasım hadisələrin təfərrüatını elə şəkildə verir ki, oxucunun əlavə suallarına heç bir ehtiyac qalmır.

Ən başlıcası, Ulduz Qasım heç bir obrazı yadından çıxarmır. Məhərrəm kişi də buradadır, oğlu Bəxtiyar da onun yanında. Onların Arazdan keçmək hadisəsi də əslində, gələcək zamanlar üçün unudulmayacaq tarix səhnəsi kimi yaddaşlarda qalacaq.

Bəli, Azərbaycan tarixinin belə səhifələri də olub və bu səhifələri unutmağa bizim haqqımız yoxdur.

**22.08.2022**

# V. "SOLMAYAN NƏRGİZ"İN CAZİBƏSİNDƏ

### 6. Həyat həqiqətləri və insan əzabları

*"Solmayan Nərgiz"* romanını bir tarixi dəyəri də var. Bu da Qarabağdan (Dağlıq Qarabağdan və ətraf ərazilərdən) erməni vandallarının ölümdirim savaşı ilə köçkün düşmüş insanların yeni mühitdə yaşam yolu, həyat tərzini həyat həqiqətinə uyğun verməsidir.

Biz əsər boyu ayrı-ayrı obrazların həyat yolunu izləyirik. Doğrudur, bir çox hallarda ayrı-ayrı sujet xətlərinin bir-biri ilə qovuşmamasını müşahidə etsək də, bu xətlərin ümumi axarda Azərbaycan taleyi ilə bağlı mühitdə bir mənzərədə görünmələri ilə bir bütövlük, tamlıq mənzərəsini müşahidə edirik. Yəni Əhməd-Nərgiz xətti, Əhməd-Nərgiz-Məhərrəm kişi - Bəxtiyar xətti, Nərgiz-Məhəmməd müəllim xətti, Fəzli kişi - Zeynəb xətti, ayrı-ayrılıqda Rəcəb və Hikmət xətləri, Məhəmməd-Sadıq müəllim-Camal müəllim xətləri, nəhayət, bura qədər obrazların fonunda görünən Nərgiz-Əhməd xətti... Bəlkə başqa da cizgilərlə görünən xətlər var, amma hamısını ayrı-ayrılıqda şərh etmək bir qədər yoruculuq yaradardı.

Hər halda müəllif əsərdə köçkünlük həyatının (özü də məcburi köçkünlük) cizgilərini vermək üçün yaxından tanıdığı insanların obrazlarından yetərincə istifadə edir. Bəlkə də tarixin hansı dönəmindəsə, bir tarixçi yazacaq ki, insanlar erməni silahlılarının vandal təzyiqi nəticəsində yerlərini, yurdlarını tərk elədirlər. Bu nə dərəcədə reallığa uyğun görünəcək; bax o zaman əsil həqiqətləri axtaranlar zamanında yazılmış əsərlərin məzmununa müraciət etməli olacaqlar.

Düşünmək olar ki, Ulduz Qasımın *"Solmayan Nərgiz"* romanı gələcək zamanlarda tarixçilərin qarşısına çıxa biləcək faktlardan kənar (həm də faktlarla birgə) psixoloji mahiyyəti aşkarlayan suallara cavabı axtaracaqlar. Bax belə sualların əsil cavabı Ulduz Qasımın *"Solmayan Nərgiz"* romanı kimi əsərlərdə qədərincə, cəsarətlə "üzə dura biləcək".

Ulduz Qasımın "Solmayan Nərgiz" romanının əsas xətlərindən biri də Fəzli kişi və Zeynəb xəttidir.

Məcburi köçkünlər, Sabirabad, Saatlı, İmişli rayonlarında qurulan çadırlarda məskunlaşırlar. Əlbəttə, Fəzli kişi də, onun qızı Zeynəb də bu məşəqqətli həyatı yaşamağa məhkum idi. İstidə çadırın qovurmağı, soyuqda bu həyatın titrəmələri necə yaddan çıxa bilər? Bu həyatı yaşayan Fəzli kişinin - o kişinin ki, böyük dəm-dəstgahıvardı, kimsəyə möhtac deyildi, hətta Arazın cənub tərəfini adlayan kimi cöngəsini kəsib insanlara pay bölməyi kimi qüdrəti vardı. Amma indi Fəzli kişi kim idi? Bütün olanını, qopanını itirmiş bir tavanasız qarabağlı.

Cəbrayıl rayonunun Mehdili kəndinin sakinləri də artıq payıza dönməkdə olan havanın kəskin mühitindən daldalanmaq imkanı verən çadıra sığınmışdılar. Kim deyə bilərdi ki, Fəzli kimi bir kişi bir çadıra beləcə yazıqcasına sığınıb, buna kim inanardı əgər əvvəlki vaxtlar olsaydı?

Və bu yerdə Ulduz Qasımin bir yazıçı monoloqu daha çox kara gəlir: *"Ayrı bir çıxış yolu da yoxdu. Yayın istisi, qışın palçığı onları xəstəliklərə, azar-bezara sürükləyirdi. Dözənlər, dözməyənlər oldu. Vətən, torpaq həsrətinə dayana bilməyənlər ağır dərdlərə düşdülər, neçələri Allahın rəhmətinə qovuşdu. Doğulan uşaqlarda hər cür çatışmazlıqlar özünü göstərirdi. Çadırlar bürmə-bürmə buz bağlayırdı. Yalın divarlar, sobasız sığınacaqlar bıçaq kimi doğrayırdı. Daşa dönən döşəklər, soyuq kəsən yorğanlar qızdırmırdı. Səhər-səhər yuxudan ayılanların əli, üzü hələm-hələm isinmirdi. Şəhərlərdə məskunlaşanların vəziyyəti bir yana baxanda şükürlüydü. Şəraitləri ürəkaçan olmasa da, azından əl-ayaqları quruydu. O dönəmlərdə qaçqın düşərgələrinə yolu düşənlər həmən dəhşətli mənzərəni yaqin ki, ömür billah unutmayacaqlarş. Ancaq həmişə özünü humanist bəyan edən ölkələr ədalətdən, azadlıqdan dəm vuranlar niyə bu faciəyə göz yumurdu? Niyə insanlığın, ədalətin tərəfindən çıxış etmirdilər? Niyə bu insanlar ikiüzlü, ikidillidirlər görəsən? Çox qəribədi, onların özləri bu şəraitə düşsəydilər, yenəmi susardılar? Niyə sülhsevənlər, ədalətlə yaşamaq istəyənlər ayağa qalxmırdılar? Nədən düz sözü deməkdən çəkinirdilər? Boyaboy şərqdə, Fələstində, Afrikada, dünyanın başqa səmtlərində meydan sulayan fəlakətlərə necə sakitcə durub heç nə olmamış kimi baxmaq olar? Yəni dünya beləmi zalım olub, i!ahi?! Hara gedir sonu?"*. Bu, yazıçının monoloqudur, özü də təkcə indiki zamanın oxucusuna yox, gələcəyin bütün oxucularına və ən başlıcası, dünyanın taleyini həll etmək iddiasında olanların hamısına müraciətidir.

Əsərin bu hissəsində (IV hissə) biz Zeynalın psixoloji durumu ilə daha yaxından tanış oluruq və məlum olur ki, insanların taleyi təkcə onların maddi itkiləri ilə hesablanmır. İnsan üçün elə dəyərlər var ki, bu dəyərləri həyat axarında daha aydın görmək olar. Bu dəyərlər nə qədər ağrılıdır, bu dəyərlər nə qədər acılıdır?

Növbəti hissədə biz Zeynəbin yaşadığı iztirabların həkimlər tərəfindən müşahidələrini də görürük. Bu müşahidələr bizə imkan verir ki, biz bir insanın təbiətində nəyin baş verib, nəyin baş vermədiyini və bu zaman hansı faciələrin araya çıxdığını görə bilək.

Bütün əsər boyu çox az görünsə də, (əlbəttə, Nərgizlə müqayisədə) Zeynəb obrazını yaddan çıxarmayan xüsusi bir əlamət var. Bu da ondan ibarətdir ki, Zeynəbin taleyi onun düşüncə taleyi ilə bağlıdır, yəni əsərlərinin taleyi ilə bağlıdır. Əslində Zeynəbin müalicəsinin yeganə yolu torpağının, yurdunun azad olunması, ən azı, heç olmasa, şeir dəftərlərinin yandığı yerlərin ziyarəti ola bilərdi.

Bir sözlə, əsər bu cür kəskin, düşüncədə sərrast ağrı yarada biləcək motivlərlə doludur.

Bu əsəri oxuyarkən, Ulduz Qasım həyatın rənglərini olduğu kimi, yerində, məqamına görə göstərməyə çalışır. O, istəyir ki, hər hansı bir oxucu əsərin bütün motivlərində həqiqəti görsün. Bu mənada prosesin təsvir məqamı boyu biz real obrazlarla da, ləyaqətli insanlarla da ardıcıl tanış ola bilirik. Məsələn, bu hissədə Nadir həkim obrazı xüsusilə təqdirə layiqdir. O, bütün imkanları ilə Zeynəbə kömək etmək istəyir. Onun yaşadığı durumun nədən ibarət olduğunu valideynlərinə düzgün izah etmək istəyir. Biz yazıçının humanist mövqeyini Zeynəbin ailə mühitində də görürük. Hətta onun həyat yoldaşı ən çətin situsiyalarda onu tək buraxmır. Onunla birgə gərgin, psixoloji durumu yaşamaq zorunda qaldığından peşmanlıq hissi keçirmir.

Ümumiyyətlə, "Solmayan Nərgiz" romanında insanlığın təsviri və tərənnümü xüsusi əhəmiyyət kəsb edir.

Əlbəttə, yazıçı Nərgizin ən müxtəlif durumlara məruz qaldığı məqamları da bütün dəqiqliyi ilə göstərir. Bu məqamlarda kimlərin insani münasibət göstərməsini, kimlərin nə dərəcədə təmənnalı olduğunu üzə çıxarmağa çalışır.

Xüsusilə, Nərgizin əsirlikdən sonra heç bir qohumluq telləri ilə bağlanmayan insanlar tərəfindən doğmalıqla qarşılanması sözün həqiqi mənasında təsirli duyğularla yadda qalır: *"Ev sahibləri Nərgizin - az müddət ərzində isnişib bağlandıqları bu qızın getməsini heç istəmirdilər. Bəxtiyar Nərgizi özünə baxı bilirdi. Amma indi nə demək olar? Dost-doğma əmi gəlib yetim qalmış qardaşı qızını özü ilə aparırdı. Burada nə pis iş ola bilərdi? Yenidən görüşüb bir-birlərini axtaracaqlarına söz verib ayrıldılar. Gedərkən Məhəmməd müəllim harada yaşadıqlarını nişan verdi. Əslində Məhərrəm kişi onu tanıyırdı. Qonşu kənddə məktəb direktoru olduğunu bilirdi"*. Və bununla da yeni Məhəmməd müəllim və Nərgiz xətti ortaya gəlir. Yazıçının insanı münasibətləri tərənnüm etməsi üçün, xüsusilə insan münasibətlərində psixoloji dərinliklərə getməsi üçün bu xətt ona daha çox imkan verir.

Əsərdə Rəcəb xətti də maraqlıdır. O birbaşa heç bir obrazla bağlı deyil. Amma sadəcə bir Azərbaycan vətəndaşıdır. Hətta köçkünlük düşərgəsində adamların düşdükləri biganəlik, laqeyidlik üzündən çətinliklərə etiraz ələməti olaraq üsyankarlıq göstərir. Hətta o, həmin düşərgədə yaşamayacağı halda öz üsyankarlığından geri durmur. İstədiyinə nail olur, haqsızlar cəzalanırlar. Lap bir az dəqiqləşdirsək, icra başçısını işdən çıxarırlar.

Əsərin bu hissəsində (IV hissə) Nərgizin Narxanımla qarşılıqlı münasibətləri çətinliklər zamanı insan dözümünün dəyərsizliyə aparan tərəflərini də aydınlığı ilə göstərir. Biz Məhəmməd müəllimin timsalında necə ləyaqətli bir kişini ziyalı görürüksə, onun həyat yoldaşı Narxanımın timsalında insanlığa qarşı qəddar münasibəti görürük.

Əsərin bu hissəsində insan taleyini sınağa çəkən başqa hadisələr də baş verir. Əhmədin xalası qızına evlənmək təklifi də onun üçün bir həyat sınağıdır. Amma Əhməd hələ buna yetərincə hazır olmadığını və hətta xalası qızını bacı gözündə görməyini qətiyyətlə bildirir. Bununla da əslində Əhməd nisbətən onun üçün açılacaq rahat yolundan imtina edir.

Doğrudur, buraya qədər Əhmədin Nərgizlə bağlı sevdası haqqında heç bir işarə yoxdur. Amma ölüm ayağında olan anasının sözləri də kifayət qədər qətiyyətlə onun yaddaşında özünə yer alıb: *"Oğlum, Nərgizlə evlən. Onun başına gələnlər öz istəyi ilə olmayıb"*. Biz bəlkə də bir qədər tələsdik bu hökmü yada salmağa. Amma insanlıq üçün son dərəcə dəyərlidir ki, bir ana hər cür dəyərdən ləyaqəti daha üstün tutur. Və hətta oğlunun xoşbəxtliyini də Nərgizlə birgə olmaqda görür.

Bir sözlə, ana həyatını tərk eləməli olur. Əhmədin anası Nigarın belə acınacaqlı bir zamanda onu tərk edib dünyadan getməsi Əhməd üçün çox böyük sarsıntıya səbəb olur. Hətta Əhməd anasını xilas etmək üçün hər cür fədakarlıq göstərir. Gecə xətəxanaın zirzəmisində qalır, payızın soyuqlarına dözməli olur. Amma iradəsini qoruyur. Bütün gücü ilə əsil kişilik nümunəsi göstərir.

Əsərdə insanlığın mərdanəlik səhnəsini göstərən lövhələr də az deyil. Xüsusilə Əhmədin anasının yas mərasiminə Nərgizin və əmisinin gəlişi... Halbuki bu adi bir gəliş deyildi. Nərgizin Narxanımın əlindən (əmisinin arvadı) çəkdiyi zillətlərin qabağında insanlıq simasını itirməməsi, əsirlik dostunun (əsirlik qəmdaşının) yanında olmaq istəyinin hansı iradənin bahasına başa gəldiyini təsəvvür etmək çətin deyil.

Əsərdə çox sarsıdıcı səhnələr var. Xüsusilə Narxanımın Nərgizə qarşı münasibətini göstərən səhnələr. Əsas odur ki, bu səhnələrdə qəddar bir qadın, eyni zamanda hər cür situasiyada hiyləgərlik göstərə bilən, ən müxtəlif bəhanələrlə araya qan qaralığı, sarsıdıcı vəziyyətlər yarada biləcək bəhanələr tapan Narxanımın hikkələri, qəzəbləri və nəhayət, bu qəzəbdən keçən qərəzləri unudulan deyil.

Həyat heç nəyi əvəzsiz qoymur. Axır ki, bir vaxt gəlir, bu qəzəbli, hikkəli Narxanım taledən və əmisindən başqa bir yardımı olmayan Nərgizin yardım puluna da göz dikməli olur. Bu da həyatın cəzası kimi əsərdə unudulmayacaq bir səhifə kimi yadda qalır.

Əsərin bu hissəsində biz Rəcəbi fəal görürük. Onun icra başçısının münasibətinə qarşı mübarizəsi həqiqətən həyatdan alınmış epizodlar təsiri bağışlayır. İmişlinin icra başçısı, qadın hökmdar təkzibolunmaz dəlillərə görə işdən çıxarılmalı olur. Bu əslində Rəcəbin xidməti idi. Özü də Rəcəb çadır şəhərcəyində kimləsə qohum olub-olmamağının fərqində deyil. O, adamların ümumi vəziyyətinə rəğmən hərəkət edir. Yəqin ki, gələcək zamanlarda Rəcəb və Hikmət kimi əsərdə təsvir olunan və yerli yataqlı göstərilən obrazların kimliyi haqqında da maraqlanan olacaq. Onların insanlara təmənnasız xidmətlərinin dəyəri qədərincə veriləcək.

Biz yazı boyu belə bir düzgün, yazıçının məramına uyğun xətti bütün aşkarlığı ilə göstərməyə çalışdıq ki, məcburi köçkünlük, qaçqınlıq, bir sözlə, müharibə fəsadları insan taleyi üçün faciə törədir. Özü də bu faciə təkcə insan ölümləri ilə, yerlərin, yurdların işğalı, yandırılması, dağıdılması ilə bitmir. Eyni zamanda işğal motivi insanların psixoloji mühitinə də sarsıdıcı təsir göstərir. İşğalın əsas məqsədi ondan ibarətdir ki, insanları təkcə yerindən. yurdundan eləməsin, onların ruhlarını da məhv eləsin. Onların düşüncələrini də dağıtsın. Onların yaddaşlarını da pozsun.

Ulduz Qasımın *"Solmayan Nərgiz"* romanı əsas mahiyyət etibarı ilə məhz yaddaş pozğunluğunun qarşısını almaq, düşmənin insanların ruhunu işğal etməsinə qarşı inad göstərmək üçün yazılıb. Biz bu əsərlə yazıçı mövqeyinin aydınlığını kifayət qədər görə bilirik. *"Solmayan Nərgiz"* romanında yaddaş davası heç də Qarabağ savaşındakı qanlar, qadalar meydanından az təsirli deyil.

Ulduz Qasım Qarabağ uğrunda savaşın təkcə ərazi savaşı olduğunu deyil, həm də yaddaş savaşı olduğunu bütün aydınlığı ilə, real təsvirlər və real hadisələr fonunda verə bilir.

***21.08.2022***

# V. "SOLMAYAN NƏRGİZ"İN CAZİBƏSİNDƏ

## 7. Zülmətdən işığa doğru

İnsanların məcburi köçlə axını, demək olar ki, heç bir qayda-qanun tanımır; axının istiqaməti hara düşürsə, oraya yön alır. Bir çox hallarda köçdən qırılıb qalan, qəzaya düşən, müxtəlif səbəblərdən ayrılanların taleyi köçün içərisindəkiləri qətiyyən maraqlandırmır. Doğrudur, ayrı-ayrı adamlar özlərinə yaxın olanlar haqqında ağrı ilə düşünə bilər, amma bu ümumi köç kütləsinə aid deyil.

Məcburi köç axınını müxətlif cəhətlərdən xarakterizə etmək olar. Ən facianəsi budur ki, köç tarixi şəraitin, qəddar düşmənin basqısı altında çoxlu itkilər verir. Ən ağır bəlalara düçar olurlar, xəstəliklər, səfalətin gətirdiyi acınacaqlı hallar azmış kimi, bir çox hallarda köçün içindəkilər də bir-birini didir, bir-birinə qənim kəsilirlər. İnsanlar başıpozuqluğun gətirdiyi hissin təsiri altında qəddarlaşır, zalımlaşır, biri digərinin payını əlindən çəkib alır. Heç kim heç kimin öldü-qaldısına baxmır. Doğrudur, bu bir qədər sərt qənaətdir, amma hələ də bizdən uzaqlaşmamış zamanı gözlərimizin önünə gətirməklə bunun nə qədər doğru olduğuna bir daha inana bilərik. Ən doğmalar belə bir-biri ilə üz-göz olur. Növbələrdə, xüsusilə yardım növbələrində basabas düşür, zəiflər kimsədən mərhəmət görə bilmir... Nə isə.

Axır ki, insanlar sanki yırtıcılaşır. Artıq bu yırtıcılaşmanın bir epizodu kimi Nərgizin əmisinin arvadı Narxanımın ona olan münasibəti ən qabarıq epizod kimi yaddaşlarda unudulmayacaq iz buraxır. Qadın sanki insani hisslərdən məhrumdur. O, əsirlikdən qurtulub gəlmiş Nərgizi ən ağır ittihamlarla tənələyir, ona göz açmağa imkan vermir. Oxumağına, dərs kitablarına, kağızına, qələminə ikrahla baxır.

Narxanım kimi simasız, heysiyyətini itirmiş bir insanın həyat yoldaşı Məhəmməd müəllimi biz başqa tərzdə görürük. O, bütün varlığı ilə Nərgizi qorumaq istəyir, ona himayədarlıq etmək, bir sözlə, həqiqi mənada atalıq qayğısı göstərmək istəyir. Amma buna nail ola bilmir. Axır ki, məcburiyyət qarşısında qardaşı qızını şəhərdəki uzaq qohumlarının evinə aparmalı olur. Yol boyu Nərgizlə Məhəmməd müəllimin arasında olan söhbət Nərgizin uşaq dünyasındakı tükənməyən humanizmi, insanpərvərliyi bir daha üzə çıxarır: *"Nərgiz Bakıya yola düşəndə hələ üzündəki göyümtül ləkələr tam çəkilməmişdi. Narxanım əmisi qızıgildə çadıra dönsə də, Məhəmməd müəllim onu danışdırmırdı. Səninlə danışmaqdansa, divarla danışmaq daha yaxşıdı demişdi.*

*Nərgiz avtobusda yol boyu əmisinə yalvarırdı ki, onunla barışsın.*

*- Görürsən, əmi? Sənsiz qohumu evində, dura bilmədi. Qayıtdı. Bibimlə işin olmasın, barış onunla mənim ucbatımdan ara qarışdı.*

*Məhəmməd müəllim: - Yox, qızım. Sənin heç bir günahın yoxdur - dedi - Allah bizi belə günə qoyanların tifağını dağıtsın. O ki qaldı Narxanıma, o əzəldən qohum-əqrəba ilə yaxşı dolanmayıb. Nə valideynlərimlə, nə də bacı-qardaşlarımla. Nənəm o vaxt boşanmağa qoymadı. El-oba nə deyər, ay oğul - dedi. Özün də müəllim adamsan, hamı səndən nümunə götürür. Bu yaşdan sonra arvad boşayıb evlənən deyiləm ki, öyrənməliyəm onun xasiyyətinə. Sənin xatrinə çalışaram o həyasızı bir az cilovlayım - dedi və güldü.*

*Axşam düşhadüşdə Bakıya çatdılar. Nərgiz heç vaxt indi getdikləri qohumlarını görməmişdi. Nə vaxtsa atası anamın bir qohumu var şəhərdə demişdi. İndi o naməlum, amma haradasa doğma ünvanı gözü qarşısında canlandırmağa çalışırdı.*

*Deyir ilan vuran ala çatıdan qorxar, yazıq qız yeniyetməliyinin ən şirin çağlarından elə hey zərbələrə düçar olurdu. Valideyn itkisi, qaçqınlıq, əsirlik, əminin ocağı başında yad qadının böhtan və tənələri... İndi əmisi onu yeni bir ünvana aparırdı. Orada onu nə gözləyir: sevgimi, tənələrmi?"*. Nərgiz uşaq olsa da, yaxşı başa düşür ki, heç bundan sonra da həyat onun başını sığallamayacaq. O artıq qəddar simasını gördüyü Narxanımların tək olmadığını da anlamaqdadır. Ona görə də Bakıya yola düşərkən, hətta əmisi ilə söhbətində də onun daxili narahatlığı, gələcəkdə nələrin ola biləcəyi haqda düşüncələri bizə belə bir qənaət üçün əsas verir ki, bu qız artıq vaxtından əvvəl böyümüşdü. Onu böyüdən olmayan doğmaların qayğısı deyil. Hətta onu çox istəyən əmisi Məhəmməd müəllimin də diqqəti deyil, onu vaxtından əvvəl böyüdən həyatın qəddar üzüdür. Həyatın o üzüdür ki, rəhm bilmir, yumşaqlıq tanımır.

Doğrudur, yazımızın əvvəlində köçkünlük həyatının insanların əxlaqına, mənəviyyatına vurduğu zərbələrdən danışdıq. Hətta köçkünlük əzablarını yaşamayanların bəzilərinin də köçkünlərə necə ikrahla baxdıqlarını da təsvvürdə canlandırmağa çalışdıq. Amma hər halda insanlığın və insanların bütövlükdə qara rəngdə olmadığını da gərək qəbul edək. Elə Məhəmməd müəllimin Nərgizi gətirdiyi qohum evi bunun üçün ən yaxşı nümunə ola blər. İdris və həyat yoldaşı Şərqiyyə qonaqları gülərüzlə qarşılayır. Hətta hər cür hörmət göstərməyi özlərinə borc bildiklərini deyirlər. Ancaq burada da həyat güllü-çiçəkli hamar yolla irəliləmir. Məktəbdə Nərgizin də birgə oxuyacağı Güllər bu ailənin qızıdır. Amma elə həmin gündəcə məlum olur ki, Nərgiz bir bəladan qurtarıb daha betərinə ürcah olub.

Biz ona görə müharibəni, məcburi köçkünlüyü böyük bəla hesab edirik ki, o bütövlükdə cəmiyyətin mənəviyyatına, əxlaqına mənfi təsir göstərir. Doğrudur, Güllərin ata, anası insanpərvər, qonaqpərvər olmalarına baxmayaraq, Güllər sanki onların heç bir yaxşı keyfiyyətini əxz etməyib. Elə bil ki, insanlıq payı bölünəndə ona heç nə düşməmişdi.

Doğrudur, Məhəmməd müəllim isti münasibətdən arxayın olur. Beləliklə, Nərgizi təzədən taleyin ümidinə buraxıb geriyə qayıtmalı olur. Elə ilk gündən Nərgizin qarşılaşdığı mənzərəni yazıçı real cizgilərlə verir. Özü də kimin yaxşı, kimin pis olmağı haqda danışmır. Hər kəsi öz əməli ilə göstərir.

Nərgiz haralardan, necə gəlib keçmişdi - bunu artıq oxucu bilir. Onun hərdən xəyalən anası ilə danışması, anası ilə yuxuda görüşləri sanki Allahla mükalimədir. Ancaq burası var ki, bütün məqamlarda Nərgiz anasına inandığı hikmətin gücü ilə elə Allahına da inanır. Görünür, əlacsızlıq, qəddarlığa qarşı zəifliyin tab gətirməsi üçün belə bir mistik düşüncə ən düzgün, ən doğru yoldur. Daha Nərgiz Allaha sığınmaqdan başqa heç bir yol görmür. İki yeniyetmə qız bir otaqda üz-üzə dayanıb. Birinin sanki ədəbdən, insanlıqdan heç xəbəri yoxdur, digəri isə daxili-mənəvi saflığı ilə çox ucadadır. Beləliklə, biz sanki xeyirlə şərin ilk qarşılaşmasını (əlbəttə, bu evdə) acı təəssüratlarla müşahidə etməli oluruq: *"Güllərin otağına keçib ona göstərilən otağa keçib çarpayının üstündə oturdu, kitabdəftərini böyrünə yığdı. Güllər məktəbə aid nə var hamısını stol boyu tökmüşdü. Hələlik oxuları elə burada - çarpayıda bitirim düşündü Nərgiz, o qurtarandan sonra yaqin yer açılar, yazıları eləyərəm. Şərqiyyə onların otağına gəldi. Qızın çarpayının üstündə dərs hazırladığını görüb dedi: - Sən niyə orada oturmusan, qızım? Gəl masada otur, dərslərini rahat elə.*

*- Eybi yox, Güllər hazırlaşar, sonra mən yazılarımı yazaram.*

*-Elə deyil ki, Güllər bütün fənləri bir dəfəmə hazırlasın. O bir tərəfdə hazırlaşsın, sən də bir tərəfdə, - söyləyib qızına döndü:*

*- Qızım, kitablarının hamısını bura tökməyə ehtiyac yoxdur. Hansını edəcəksənsə, onu götür, qoy Nərgizə də yer qalsın.*

*- Bura mənim otağımdır. Necə istəyərəm, elə də edərəm.*

*- Bu nə sözdür, Güllər? O da sənin bacındır.*

*-... Xeyir, o mənim bacım-filan deyil. Kəndçinin birini gətirib mənə bacı eləmə.*

*- Danışığına fikir ver, utanmırsan dediklərindən? Mən də, atan da kənddən gəlmişik bura, şəhərli deyilik. Sən də bir kəndçi qızısan, aydındı? Sənə dedim yığışdır artıq kitabları masadan.*

*Güllər qımıldanmadı.*

*Nərgiz söz-söhbət olmasını istəmirdi:*

*-Siz narahat olmayın, Şərqiyyə xala. Mən hələlik burada oxuyuram. O qurtarandan sonra yazılarımı yazaram.*

*-Xeyir, belə olmayacaq. Hər ikinizə burada yer çatar. Bu boyda masadır. Bərabər edəcəksiniz dərslərinizi.*

*Səsə İdris gəldi: -Nə olub, Şərqiyyə?*

*- Qızından soruş. Çantasında nə var tökübmasaya, yazıq qız dərsini dizinin üstündə hazırlayır.*

*İdris əsəbləşdi: - Bu nə hərəkətdi, qızım? Bəs sənə nə dedik biz? Beləmi eşidirsən valideynlərini?*

*Nərgiz bizim qohumumuzdu, elə sənin də.*

*- Mənə qohum gərək deyil.*

*- Kəs səsini, eşidirsən? Ərköyünlüyün də həddi var.*

*- Öldürsəniz də, mən bununla nə dərsə gedəcəm, nə də dərs hazırlayacam. Üst-başına bax. Elə bil tövlədən qaçıb, iyrənirəm ondan.*

*Şərqiyyə özünü saxlaya bilməyib, ağladı. Otaqdan çıxdı. İdris də onun dalınca çıxdı. Valideynlərinin otaqdan çıxdığını görən Güllər Nərgizin üstünə hücum çəkdi: -Sevin indi, bütün ailəni bir-birinə qatdın. Yadından çıxarma, kəndçi, burada günün göy əskiyə bükülləcək. Özünü xilas etmək istəyirsənsə, bu evdən get.*

*Bu qınağın ardınca Güllərin tolazladığı kitab qızın başının üstündən ötüb divara çırpıldı.*

*O necə hərəkət edəcəyini kəsdirə bilmirdi. Narxanımın hikkəsindən qurtulub, indi də bu "qohum qız"ın toruna düşmüşdü. Neyləsin, hara getsin?"*. Görünür, həyatın elə sirləri var ki, ondan axıracan baş çıxarmaq olmur. Belə bir çıxılmazlıqda Nərgiz yenə anasını yuxuda görür. Və onun ürək-dirək verməsini, onu dözümə çağırmasını sanki üzbəüz, özündən eşidir.

Beləcə ilk gündən başlayaraq iki gənc qızın arasındakı ixtilaflar dərinləşməyə doğru gedir, arada uçurumlar yaranır. Güllər hər vəchlə Nərgizi həyatın dibi görünməz uçurumuna itələməyə hazırdır. Nərgiz isə bütün ehtiyat gücünü səfərbər edib dözməyə çalışırdı.

Belə bir vaxtda Nərgiz kimdən kömək uma bilərdi? Doğrudur, əmisi ona ürək-dirək vermiş, tez-tez pul göndərəcəyini bildirmişdi. Arada-bir baş çəkəcəyini də demişdi. Amma Nərgiz çox arzulayırdı ki, elə bir simsarı olsun ki, o, qəlbinin dərinliklərində gizlənmiş olan dərdini, iztirablarını ona açа bilsin.

Əlbəttə, belə adamlar vardı. Bəxtiyar, Əhməd, elə əsirlikdən birgə qurtulduqları Məhərrəm kişi. Əhmədin anası Nigar isə lap Nərgizə doğma ana olardı. Amma ağır həyat iztirabları dəhşətli xəstəliyə çevrilib Əhmədin də anasını gənclərin ümidi olmaqdan məhrum edir. Əhməd daha rayonda qala bilmir. Bakıya gəlməli olur. Bu işdə də yardımçı sanki qaranlıqda işıq kimi özünü göstərən Məhəmməd müəllimdir. Əhməd beləcə neft daşlarında İdrisin köməyi ilə işə düzəlir.

Doğrudur, sonralar Bəxtiyar da şəhərə gəlməli olur. Üç bir-birinə yaxın simsar olan gənc artıq bu böyük şəhərdə tənha deyillər.

Müəllif digər qəhrəmanlarını da unutmur. Vaxtı ilə ilhamla yazıb-yaradan Zeynəb indi heç nə yaza bilmir. Elə bil ki, qələmi işğalla birgə sınıb. İşğal zamanı yanan dəftərləri ilə birgə hər şeyi itirib. Burada Zeynəbin dərs dediyi məktəbin direktoru Oqtay müəllimlə dialoq da çox təsirlidir. Əgər oxucu diqqət edərsə, müharibənin daha hansı bəlaları gətirdiyini də təsəvvür edə bilər. Bəli müharibə təkcə evləri yandırmır, həm də insanların mənəviyyatına, düşüncəsinə ağır zərbə vurur. Zeynəb kimi həssas qəlbli gəncləri də mənən öldürür, şikəst edir. Yazıçının təsvirləri son dərəcə təsirlidir. Bir parçanı oxuyaq: *"İndi də dəftərləri bağrı kimi, ürəyi, dəftərləri kimi yanan, camaatın itirdiyi müqabilində, qıraq adamların nəzərincə boş bir şeyə görə (erməni işğalı zamanı dəftərləri qəhr olmuşdu) havalanan Zeynəbi xatırlayaq. Onun dərs dediyi məktəbin direktoru Oqtay müəllim Zeynəbi yanına çağırdı. Hal-əhval tutandan sonra soruşdu ki, şair qızım indi nə yazır? Zeynəb döyükdü. Az keçmiş özünü toparlayıb: -Oqtay müəllim, daha yazmıram, - dedi.*

*-Niyə, qızım? - Oqtay müəllim soruşdu.*

*Zeynəb: -Nə qədər el-obam işğaldadır, əlimi qələmə vura bilmərəm, - dedi.*

*-Yurdun düşmən tapdağı altında olmağının yazı yazmağa nə dəxli? Sənin silahın qələmdir, bala, - dedi və onun dedikləri sanki Zeynəbin qəlbində heç özünün də anlamadığı burulğan yaratdı. Oqtay müəllimə uzun bir cavab verdi:*

*-Bilirsiniz, müəllim? Qarabağ mənim ilham mənbəyim idi. O qayıtmasa, qələmə, kağıza yaxın dura bilmərəm. Özünüzə də məlumdur, Qarabağ dünyanın ən gözəl, ən dilbər guşəsidir. Allah qismət eləyib, hər qarışını dolaşmışam. Cıdır düzündə durub Topxana meşəsinə baxanda insan quş olub uçmaq istəyir. İsa bulağının bir ovuc suyu zəm-zəm dadı verir. Şuşanın daşdan hörülmüş küçələrinin hər addımı tariximizi, mədəniyyətimizi anladır. Kəlbəcərin ecazkarlığı, oradakı dağlarının əzəməti, Laçının laçın duruşu, Zəngilan çinarlığı, Qubadlının Həkərisi, Bərguşadı, Füzulinin, Cəbrayılın Araz yaxası. Hamısını bircə-bircə dolaşmışam, müəllim. İndi o cənnət orada dustaq, mən qələmə necə əl uzadım, müəllim?*

*Müəllimə ürək dağladan nitqini başa vurub getməyə hazırlaşanda Oqtay müəllim yenə də əvvəlki fikrinin üstündə durürdu: - Qızım, küllü Qarabağın qədrini elə bir cənnəti itirəndən yaxşı kim bilər ki? Təkcə elə buna görə yazmalısan, - dedi Oqtay müəllim. Sonra da əlavə elədi ki, yaxşısını sən bilirsən...*

*Zeynəb otaqdan çıxanda Oqtay müəllimin ağlına belə bir fikir gəldi; Qarabağ deyilən o varlıq yalnızca quru torpaq deyil. Bir milyon insanın daşıdığı ruhdur, candır, onu öldürmək, işğal etmək qeyri-mümkündür"*. Bəli, həqiqətən çox təsirlidir. Yəqin ki, gələcək yüz illər boyu da bu parçanı oxuyanlar Azərbaycan torpaqlarında hansı vəhşilikləri törətdiklərini bu xalqın gələcək nəsillərini öz düşmənlərinə elə bu yazılarla çatdıracaq.

Zaman sürətlə keçir. Amma insanların təbiətində ən müxtəlif istiqamətlərdə dəyişilmələr baş verir.

Əsas odur ki, bir-birinə inanan insanlar ünsiyyət, doğmalıq məsafəsini qısaltmışdılar. Nərgiz həyatının yeni uğurlarına qədəm qoymuşdu. Və ən başlıcası, indi tək-tənha deyildi. Əhməd və Bəxtiyar da lap yaxınında idi, özü də varlığında, mənəviyyatında hərəsinin ayrıca yeri vardı.

**23.08.2022**

### 8. İnamın solmayan Nərgizi

Əsərin 6-cı hissəsi Nərgizin həyatının yeni mərhələsi ilə başlanır. O, artıq Tibb İnstitunun tələbəsidir. Doğrudur, bu ərəfədə o xeyli çətinliklərlə də qarşılaşdı, sarsıntılar onun təbiətində dərin izlər buraxdı. Əmisi Məhəmməd müəllimin ölümü sanki onun doğmalarla olan yeganə bağını da qırdı. Amma, görünür, həyatın ağır zərbələrinə dözüb davam gətirə bilən hər bir şəxsdə özünümüdafiə instinkti də güclənir. Doğru deyirlər ki, dünya yaxşı adamlardan xali deyil.

Məhəmməd müəllimin gənclik dostu, professor Sadıq müəllimin doğmalığı qızın tənhalıq zamanında qəlbinə çox böyük təskinlik olur.

İndi o Tibb institutunun tələbəsidir. I kursun çətinliklərini dəf etmək üçün bütün gücü ilə çalışacaq. Yataqxanada yeni rəfiqələri var; oxumağı, çalışqanlığı ilə onlara da örnəkdir.

Qərbi Azərbaycandan, Qarabağdan, yerindən, yurdundan didərgin olmuş bir milyona yaxın insanın ağır məhrumiyyətlərə düçar olması Azərbaycan dövləti üçün çox böyük çətinliklər yaradırdı. Dövlət başçısı təkrar-təkrar müraciət edir, insanları humanizmə çağırırdı. Əlbəttə, bu çağırışları qulaq ardına vuranlar da az deyildi. Ancaq bu çağırışlardan təsirlənən, doğma xalqına dayaq durmaq istəyənlər də var idi. Beləlməri Nərgizin də qabağına çıxmaqda, tale yoluna işıq salmaqda idi.

Ulduz Qasım *"Solmayan Nərgiz"* romanında müxətlif xarakterli, müxtəlif təbiətli insan qalereyası yaradır. onları asanlıqla əymək mümkün deyil. Əhmədin Camal müəllimlə görüşü həmin dövrün ən həssas məqamlarının salnaməde əks olunan tərəfidir: *"Əhməd günlərin bir günü dənizdən qayıdıb şəhərdə gəzib-dolaşdığı vaxt Nərgizə verdiyi vədi xatırladı. Və onu görüb, onu dinləmək arzusunda olan Camal müəllimin görüşünə gəldi. Universitetin nişan verilən mərtəbəsinə qalxıb professoru soruşdu. Kim olduğunu bilmək istədilər. Özünü tanıtdı və onu da əlavə etdi ki, müəllim özü çağırtdırıb. Gözləməli olacağını dedilər, gözlədi. Çox çəkmədi, 5-10 dəqiqədən sonra ağ saçlı, uca boylu, yaşa dolmuş professor dəhlizin o başından göründü. Oğlanı göstərib onu gözlədiyini dedilər. Professor soruşdu ki, kimsən, xeyirdimi, a bala? Əhməd özünü təqdim etdi: "Adım Əhməddir, Cəbrayıldanam, siz istəmisiniz, mən də gəlmişəm". Camal müəllim eynəyini düzəldib oğlana lap yaxın yeridi, onu başdan-ayağa süzdü, sonra da əl uzadıb görüşdü. Tam bir kövrəkliklə gənci özünə sarı çəkib bərk-bərk bağrına basdı.*

*-Ə, deməli, o qəhrəman sənsən?*

*Oğlan duruxdu, nədən söhbət getdiyini anlamadı.*

*-Niyə susursan, igid? Nərgizi, digərlərini vəhşilərin əlindən xilas edən sənsən deməli? Sənin kimi cavanlara rast gələndə ürəyim dağa dönür. Heylə az yaşda hər oğulun işi deyil e, əli silahlı çaqqalların üzərinə gəlmək.*

*Sonra da oğlanı təkrar qucaqladı:*

*-Qoy sənin qüdrətin, gücün mənim də canıma çöksün. Qəhrəman necə olur, belə olur da...*

*Əhməd hələ də sakitcə onu dinləyirdi. Bunları haradan bilirdi müəl-*dörd divarın içərisinə yağır. Amma o yenə də yaxşı bir günün gələcəyinə inamını itirmir. Bütün bunlar əslində insanlığın həyat uğrunda mübarizəsinin təsviridir. Həyat nə qədər dəhşətli və acınacaqlı olsa da, insanlar yenə də yaşamaq istəyir. Rəcəbin doğma yerlərə can atması, onun şəhərdə acından ölməməsi, soyuqdan donmamaq üçün çabaları çox təsirli bir dillə yazılır: "Rəcəb kişinin işləri yaxşı getmirdi. İşləyib qazandığı yeməklərinə güclə yetişirdi. Evin tavanını düzəltdirməyə imkan yoxdu. Həyat yoldaşı yenə də hey deyinirdi. Qış qapını alıb, nə zaman başımızın üstə tavanımız olacaq - deyirdi.

-Az, neyləyim mən? Gedim ev soyum, adam öldürüm, ömrü boyu bir qarışqanı ayaqlamayan adam? Qazancım ancaq buna yetir. Neyləyək, bir tərəfini bir thəər düzəldib yığışarıq. Qalanını da görək dayna, gələn qışa qədər yəqin bir əncam çəkərik. Daşını hördürdük, şükür eləyək Allaha.

Səməyə sakitləşmirdi:

-Əşşi, hər ay çadıra baş çəsirsən. Qazandığının hamısı yola gedir dayna.

-Neyləyim, ay zalımın qızı? Kəndin qoxusunu kəndin camaatından alıram. Əgər onları görməsəm ürəyim dayanar. Çətindir, özü də çox çətindir. Birdən az qalıram dəli olam fikirləşəndə ki, mən haradasa başqa yerdə yaşayıram, oraları görə bilmirəm.

Bir otağın üstünü bir təhər örtdükdən sonra bir az rahat nəfəs aldılar. Ailənin cəmi bir kiçik otaqda yaşamalı oldu". İnsan həyatının nə qədər ağır acılara tab gətirməsi üçün təkcə elə bu epizod da az şey demir.

*-Maşallah de. Bəs Əhməd hanı, niyə tək gəlmisən?*

*Oğlan duruxdu, qız həyəcanlanmağa başladı:*

*-Niyə susursan, nəsə olub?*

*-Yox. bacı, qorxma, bir şey yoxdu. Qardaşımın əlinin ağrısı başladı, xəstəxanaya apardılar.*

*Qız narahat oldu:*

*-Axı şikayəti yox idi heç...*

*-Nə bilim, həkimlər deyirlər soyuqdandı. Əsirlikdə əlinə armaturla döyüblər. Yadında olar... Gərək vaxtında müalicə olunaydı.*

*Qızın gözünün qabağına erməni komandirinin dəmir parçasını oğlanın əlinə necə çırpdığı gəldi. Əlləri əsməyə başladı. Bəxtiyar qorxdu. Yaxınlaşıb qolundan tutdu. Sakit olmasını xahiş etdi. Nərgiz oğlandan Əhmədin hansı xəstəxanada olduğunu soruşdu. Yubanmadan taksi saxlatdırıb onu görməyə getdilər".* Hadisələrin bundan sonrakı gedişi sanki qaranlıqların dağılmasına, gündüzlərin gəlişinə bənzəyirdi. İndi Əhməd tək deyildi. Xalqını sevən görkəmli alimlərin diqqəti onun üzərinə cəmlənmişdi. Bütün varlığına hakim olan Nərgizin sevgisi də onun təbiətinə işıq salırdı. İndi Bəxtiyar onun yanındaydı.

Düşünmək olar ki, müəllif ayrı-ayrı hadisələri, ayrı-ayrı obrazları təfilsatı ilə verməkdə bir əsas məqsədi oxucunun diqqətinə çatdırmaq istəyir. Demək, insanlar mənən bir-birinə yaxın olmaq istəyəndə, insanlar bir-birini sevəndə bütün çətinliklərə qalib gələ bilirlər. Əslində elə Azərbaycanın özünün də bir milyon nəfərə qədər insanın didərgin olması ilə yaranmış prob-

# V. "SOLMAYAN NƏRGİZ"İN CAZİBƏSİNDƏ

Universitetin dekanı Camal müəllimin həssaslığı, Sadıq müəllimin dostluqda sədaqəti ən sərt qəlbli oxucunu belə kövrəldir. İnsan düşünür ki, cəmiyyət belə insanların çiynində dayanır. Belə insanlar olmasaydı, cəmiyyət öz içindən sarsılar və dağılıb gedərdi.

Dövlət başçısı bu dövrdə öz gücünü az qala sütunları dağılmaqda olan məmləkəti bərpa etməyə, onun sərhədlərini qorumağa sərf edirdi. Ancaq şimaldan, cənubdan olan təhdidlər hər halda dövlət başçısının qaçqınlara qədərincə qayğı göstərməsinə də təsirsiz ötüşmürdü. Azərbaycanın həmin mərhələdən daha da güclənmiş, toparlanmış vəziyyətdə çıxmasında dövlət başçısının siyasətini qoruyan, müdafiə edən qüvvələrin xidməti əvəzsiz idi.

Belə bir vaxtda Nərgizin düşmən əlindən necə çıxdığını öyrənən Camal müəllim Əhmədin də sorağına düşür. Onun necə qəhrəman olduğunu, erməni vandallarının komandirlərini öldürüb özünü də, dostlarını da düşmən cəngindən xilas etməsini eşidəndə nə qədər kövrəlir və eyni zamanda nə qədər qürurlanırdı. Bəli, Əhməd kimi gəncləri olan xalqın sarsılmazlığı ilə qürurlanmaq təbiidir. Camal müəllim Əhmədi universitetə çağırır, ona hər cür kömək, yardım göstərir ki, universitetə qəbul olsun, oxusun, təhsil alsın. Hətta ona bunun üçün hər cür şərait yaradacağını da bildirir. Doğrudur, bu da asan başa gəlmir. Dekanlığın məsul işçisi İlham adlı şəxs Əhmədin universitetə qəbul olmasına hər cür maneçilik göstərir. Hətta Nərgizə münasibətdə İlhamın əxlaqsızlığını da görürük. Ancaq o unudur ki, Əhməd və Nərgiz həyatın hər cür sınaqlarından keçiblər və *lim? Camal müəllim oğlanın qolundan tutub onu kabinetinə apardı".* Görünür, ayrı-ayrı adamların qəhrəmanlığı xalqın ümumi tarixini müəyyən edir. Və elə buna görə də unudulmur, yaddan çıxmır. Camal müəllim Əhməd haqqında Nərgizin dilindən eşitmişdi. Və o Əhmədlə təkcə qəhrəmanlıq göstərmiş bir gənc kimi yox, həm də xalqın qəhrəman oğlu kimi görüşür.

Əsərin bu hissəsində müəllif bir daha Fəzli kişinin taleyinə qayıdır. Əmisi Əyyubun vəfatından danışır. Fəzli kişi nə qədər iş bilən, böyük təmkin sahibi, hər cür çətinliklərə qatlaşan bir müdrik olsa da, dövrün sarsıntıları ondan da yan keçmir. O da hiss edir ki, zamanın ağrı-acıları polad kimi möhkəm iradəsinə dov gəlməkdədir. Bunlar ayrı-ayrı adamların tale yoludur. Köçkünlüyün ən kədərli notları bu adamların taleyində görünür. Əhalinin salamat çıxarılmasında böyük xidmətlər göstərmiş Rəcəbin, Hikmətin qəhrəmanlıqları necə unudula bilər. Hikmət şəhərə gələ bilmir. Elə çadırda qalır. Rəcəb isə dolanışıq qura bilmədiyi üçün məcburiyyət qarşısında şəhərə köçür. Burada yazıçı onun maraqlı bir xüsusiyyətini qeyd edir. Hər cür çətinliyə, yol pulunun olmamasına baxmayaraq Rəcəb ayda bir-iki dəfə çadıra baş çəkir. Cocuq-Mərcanlıyacan gedir, oradan Mehdiliyə baxır. Doğma kəndini saatlarca ağır dərd içərisində seyr etməkdən yorulmur.

Müəllif Rəcəbin Bakıda ev qurması uğrunda mücadiləsini də çox ağrılı notlarla qələmə alır. Dörd divarı qaralayıb, üstünə çadır çəkib ailəsini altına yığır. Yağan yağışlar ev adlanan Əhmədin əsirlik həyatından yadigar qalan ağrıları istehsalatdakı işində təzədən özünü göstərir. Axı Əhmədin başını əzdiyi Sərkis bir vaxt onun barmaqlarını ağır dəmirlə basıb əzmişdi. İndi həmin yara müxtəlif səbəblərdən təzədən dövr eləməyə başlayır. Əhməd xəstəxanaya düşür. Amma bu zaman yenə özünü tox tutur. Sanki daxili-mənəvi təpərinə güvənir. Doğrudur, bu böyük şəhərdə indi o tək deyil. Əsirlikdən birgə qurtulub gəldikləri Bəxtiyar da yaxındadır. Nərgiz də öz doğmalığı ilə Əhmədin varlığına qəmlərin hakim kəsilməsinə imkan vermir.

Gənclərin birgə keçib gəldiyi yol onlar üçün həyat dərsi olur. Bütün bunların müqabilində onlar paytaxtda baş verən hadisələri elə də sarsıntı ilə qarşılamırlar. Sanki nələrin olacağını bilirlər. Hətta əsirlikdəki qədər dəhşətli heç nəyin olmayacağını da bilirlər. Dünyadan əlləri üzülmüş, bir kimsələri olmayan valideynlərini, doğmalarını Müharibənin apardığı bu gənclər hər hansı bir çətinlikdə başqa heç kimə yox, yenə bir-birinə üz tuturlar: *"Bazar günü olduğundan Nərgiz evdə idi. Bir az yır-yığış elədi, sonra dükana çıxmağı qərara aldı. Yataqxananın qapısından çıxarkən Bəxtiyarı gördü:*

*- Aaa, sən burada neyləyirsən, qardaş?*

*-Sənin yanına gəlmişdim.*

*-Burda niyə durmusan?*

*-Nə bilim otağının nömrəsini bilmirdim ki, çağırtdırım. Dedim Allah eləyər çıxarsan çölə qarşılaşarıq. Həmişə Əhmədlə gəlirdim, ona görə heç nəyi yadımda saxlamamışam. Görürsən də, qardaşın bəxti yeyin oğlandı.*

lemləri dəf etməsi bu birliyin nəticəsi idi. Nəhayət, onu da qeyd edək ki, ruhu, varlığı ilə bir olanları həyat özü də qoruya bilir. Hər cür çətinliklərə insan bir-birinə güvənməklə qalib gələ bilir.

Hadisələrin bu cür gedişatı göstərir ki, Azərbaycan xalqı ən çətin günlərində belə torpağı azad etmək məramından dönməyib. Demək, məqsəd nə qədər alidirsə və məqsəd uğrunda dönmədən mübarizə nə qədər inadlıdırsa, uğur da bir o qədər yaxında olur. Doğrudur, hələ hadisələrin cərəyan edəcəyi çox məsələlər var, dövrlər var. Bütün bu dövrlər, zamanlar ötüb keçəcək. Çətin zamanlardan, həyat sıxıntılarından alnı açıq keçən insanlar bir-birinin gözlərinin içinə daha rahatlıqla, daha arxayınlıqla baxa biləcəklər. Ulduz Qasım *"Solmayan Nərgiz"* romanı ilə xalqı qarşısında yazıçılıq borcunu ləyaqətlə verə bildiyini təsdiq edir.

Zamanın köçkünlük ağrı-acısı Nərgizi nə qədər ağır iztirablara məruz qoysa da, onun həyata, yaşamağa can atan könül işığını söndürə bilmir.

Yazıçı əsərinin adını təsadüfi olaraq *"Solmayan Nərgiz"* qoymayıb.

Nərgiz qışın şaxtasında, yayın istisində hər cür məhrumiyyətlərə ona görə sinə gərə bilir ki, o doğma xalqının arasındadır. Vətənindədir. Ayaqları Azərbaycan adlı məmləkətin torpaqları üstündədir. Və bir gün paytaxtdan üzü Qarabağa doğru bir yolun açılacağına da hədsiz inamı var.

Bəli, Nərgizi solmağa qoymayan bu inamdır.

***Əli Rza XƏLƏFLİ***
***23.08.2022***